
Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 59 (20.960)

4 aprel 2014-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Tacikistanın xarici işlər naziri Sirociddin Aslovu qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Tacikistan arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Tacikistan Prezidenti Emoməli Rəhmonun ölkəmizə səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev bu səfərin əlaqələrimizin gələcək inkişafı ilə bağlı məsələlərin müzakirəsi baxımından önəmini qeyd etdi. Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin gələcəkdə də uğurla inkişaf edəcəyinə əminliyini diqqətə çatdırdı. Prezident İlham Əliyev Tacikistanın xarici işlər naziri Sirociddin Aslovun Azərbaycana səfərinin əməkdaşlığımızın daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

Tacikistanın xarici işlər naziri Sirociddin Aslov Prezident Emoməli Rəhmonun salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, Prezident Emoməli Rəhmonun Azərbaycan Prezidenti İlham Əliyevi Tacikistana rəsmi səfərə dəvət məktubunu dövlətimizin başçısına təqdim etdi.

Görüşdə Azərbaycan ilə Tacikistan arasında əməkdaşlıq üçün yaxşı hüquqi bazanın mövcudluğu vurğulandı, ölkələrimizin müxtəlif sahələrdə, o cümlədən iqtisadi, ticarət, sənaye, sərmayə qoyuluşu və digər sahələrdə əlaqələrinin genişləndirilməsi üçün böyük imkanların olduğu bildirildi.

Dövlətimizin başçısı Prezident Emoməli Rəhmonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Tacikistan dövlətinin başçısına çatdırmağı xahiş etdi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Dünya Turizm Təşkilatının Baş katibi Taleb Rifaini qəbul etmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkini qəbul etmişdir.

## Naxçıvandan başlanan xilaskarlıq missiyası



*Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində “Naxçıvandan başlanan xilaskarlıq missiyası” mövzusunda açıq dərs keçilmişdir. Naxçıvan Tibb Kolleci tələbələrinin iştirak etdiyi açıq dərsdə kollecin müəllimi Xanım Kazımova ümummilli liderimiz Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti haqda danışaraq bildirmişdir ki, müstəqil Azərbaycan xalqımızın böyük oğlunun şah əsəridir. Bu möhtəşəm əsərin möhkəm əsaslarını ulu öndər hələ Sovet hakimiyyəti illərində formalaşdırmışdır. Ulu öndər xalqımızın çoxəsrlik tarixində Azərbaycan adlı müstəqil dövlət yaratmış nadir şəxsiyyətdir.*

Qeyd edilmişdir ki, xalqımızın böyük oğlu Heydər Əliyevin zəngin tərcümeyi-halında Naxçıvanda siyasi fəaliyyət göstərdiyi dövr mühüm əhəmiyyətə malikdir. Bu dövrdə dahi rəhbər çoxcəhətli yorulmaz fəaliyyəti ilə Azərbaycan dövlətçiliyinin Naxçıvan məktəbini yaratmışdır. Ümummilli liderin Naxçıvan Muxtar Respublikasında yaşadığı və Ali Məclisin Sədri vəzifəsində çalışdığı illərdə Naxçıvan ölkəmizdə müstəqil dövlətçiliyin böyük laboratoriyası funksiyasını həyata keçirmişdir. Hələ Sovetlər İttifaqı dağılmadığı və Azərbaycanda dövlət müstəqilliyinin elan olunmadığı bir dövrdə indiki üçrəngli Azərbaycan bayrağının dövlət rəmzi kimi qəbul edilməsi (17 noyabr 1990-cı il) məhz cəsarətli və uzaqgörən dövlət xadimi Heydər Əliyevin dönməz iradəsi sayəsində Naxçıvanda həyata keçirilmişdir. Dünyada bundan başqa müstəqil dövlətlər yaranmamış onun milli bayrağının qəbul edilməsi hadisəsinə təsadüf edilməmişdir. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından “Sovet Sosialist” sözlərinin çıxarılması hadisəsi də məhz müdrik rəhbər Heydər Əliyev tərəfindən Sovetlər İttifaqının mövcudluğu şəraitində həyata keçirilmişdir.

Bildirilmişdir ki, Naxçıvanda Dünya Azərbaycanlılarının Həmrəylik Gününün müəyyən olunması ilə dünyada azərbaycanlılar anlayışı meydana çıxmış və geniş bir hərəkatın əsası qoyulmuşdur. XX əsrin doxsanıncı illərinin əvvəllərində Naxçıvan Muxtar Respublikasının işğal olunmaqdan xilas edilməsi, ölkəmizin ərazi bütövlüyünün qorunub saxlanılması xalqımızın böyük oğlu Heydər Əliyevin tarixi xidmətlərindən biridir. Müstəqil Azərbaycanın taleyində xüsusi əhəmiyyətə malik olan Yeni Azərbaycan Partiyasının da dahi rəhbər Heydər Əliyev tərəfindən Naxçıvanda yaradılması ölkəmizin milli istiqlalında böyük öndərin həyatı və fəaliyyətinin Naxçıvan dövrünün müstəsna dərəcədə əhəmiyyətli olduğunu bariz şəkildə göstərməkdədir.

Açıq dərsdə vurğulanmışdır ki, ulu öndər, görkəmli dövlət xadimi, Milli Qurtuluşun banisi, böyük xilaskarlıq missiyasını bacarıqla həyata keçirmiş Heydər Əliyevin müstəqillik və milli dövlətçilik ideyalarının dünyada gedən proseslərə, ölkənin reallıqlarına uyğun şəkildə yaradıcılıqla inkişaf etdirilməsi sayəsində Azərbaycan Respublikası işıqlı sabahlara doğru qətiyyətlə addımlayır.

Sonra açıq dərsin iştirakçıları muzeydəki eksponatlarla tanış olmuşlar.

## “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin Culfa rayon filialı fəaliyyətə başlayıb



Belə ki, aprelin 3-də bankın Culfa rayon filialı da fəaliyyətə başlamışdır. Filialla tanışlıq zamanı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Səbuhi Məmmədov bildirmişdir ki, Culfa şəhərindəki “Təbriz” küçəsində fəaliyyət göstərəcək bank filialında müasir avadanlıqlar quraşdırılmış, müştərilərə yüksəksəviyyəli bank xidmətlərindən istifadə etmələri üçün hərtərəfli şərait yaradılmışdır. Bütün bank xidmətlərinin göstəriləcəyi filialda əhali, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan sahibkarlar onlara təklif olunan kiçik maliyyə resurslarından yararlana biləcək, plastik kartlar, müxtəlif pul köçürmələri, vergi və rüsumların ödənişləri və digər bu kimi maliyyə əməliyyatlarından istifadə etmək imkanı əldə edəcəklər.

Xatırladaq ki, “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyəti tərəfindən 2014-cü ilin yanvar ayından etibarən kənd təsərrüfatı və biznes üçün verilən kreditlərin faiz dərəcələri 15 faizədək endirilmişdir. Kiçikhəcmli kreditlərin verilmə prosedurları isə sadələşdirilmişdir. Həyata keçirilən tədbirlər adıçəkilən rayonlarda sahibkarların kiçik maliyyə resurslarına olan tələbatlarının ödənilməsi ilə bərabər, muxtar respublikada kənd təsərrüfatının inkişafına da stimul verəcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq olunmuş “2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nın və “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın həyata keçirilməsi məqsədilə bir sıra addımlar atılır. Atılan bu addımların əsas mahiyyəti muxtar respublikada kənd təsərrüfatının hərtərəfli inkişaf etdirilməsi, bu sahədə fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektlərinin dəstəklənməsi və əhalinin yerli məhsullara olan ehtiyacının tamamilə ödənilməsindən ibarətdir. Bu məqsədlə yeni bank və bank filiallarının yaradılması və onların əhatə dairəsinin genişləndirilməsi, xüsusilə kənd təsərrüfatı sahəsində çalışan fərdi torpaq mülkiyyətçilərinə güzəştli şərtlərlə mikrokreditlərin verilməsinin dəstəklənməsi mühüm əhəmiyyət daşıyır.

Xəbər verdiyimiz kimi, aprelin 1-də Azərbaycan Respublikası Mərkəzi Bankının müvafiq lisenziyası əsasında “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin Şərur rayon filialı fəaliyyətə başlamışdır. Şərur, Sədərək və Kəngərli rayon sahibkarlarının kiçik maliyyə resurslarına olan tələbatlarının ödənilməsində mühüm rol oynayacaq “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin növbəti filialının yaradılması Ordubad və Culfa rayonlarında fəaliyyət göstərən torpaq mülkiyyətçilərinin sevincinə səbəb olmuşdur.

## Növbəti əmək yarmarkası Şahbuz rayonunda keçirilib

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətindən aldığımız məlumata görə, Şahbuz rayonunda keçirilən əmək yarmarkasına 11 təşkilatdan 137 boş iş yeri təqdim olunub.**

Tədbirdə rayon Məşğulluq Mərkəzinin direktoru Fəxrəddin Bağırov çıxış edərək deyib ki, işaxtaran vətəndaşların, xüsusilə gənclərin sosial müdafiəsinin gücləndirilməsi, onların münasib işlə təmin edilməsi istiqamətində ardıcıl olaraq həyata keçirilən mühüm tədbirlərdən biri də əmək yarmarkalarının təşkil olunmasıdır. Bu yarmarkalar vasitəsilə işaxtaranlar öz ixtisaslarına uyğun işlə təmin olunurlar.

İşaxtaran vətəndaş Röya Hüseynova belə tədbirlərin təşkilində əməyi olanlara minnətdarlıq edib.

38 nəfərə işə göndərişin verildiyi yarmarkada Şahbuz Rayon İcra Hakimiyyətinin əməkdaşı Xəqani Həsənov çıxış edərək rayonda əhalinin məşğulluğu istiqamətində görülən işlərdən danışıb.

Qeyd edək ki, bu qəbildən olan növbəti yarmarka bu gün Culfa rayonunda keçiriləcək.

## Yeni istehsal sahəsi yaradılıb

*Naxçıvan şəhərində fəaliyyət göstərən “Zümrüd” Kiçik Müəssisəsi əlverişli sahibkarlıq mühitindən bəhrələnərək dövlət maliyyə dəstəyi ilə istehsal sahəsini ildənilə genişləndirir. Müəssisənin icraçı direktoru Mehrəngiz Əkbərovanın verdiyi məlumata görə, cari ildə də bu istiqamətdə işlər davam etdirilmiş, sifariş verilən xüsusi geyim formalarının kompleks şəkildə müəssisədə istehsal edilməsi məqsədilə köynək istehsalı sahəsinin yaradılmasına başlanmışdır.*



Naxçıvan şəhərinin Əliabad qəsəbəsindəki Əcəmi-39 ünvanında ayrılmış yeni binanın istehsal sahəsinə uyğunlaşdırılması üçün təmir-bərpa və yenidənqurma işləri aparılmış, su, istilik və kanalizasiya sistemləri yenidən qurulmuş, elektrik xətləri çəkilmiş, arakəsmələr hörülmüş, beton və suvaq işləri başa çatdırılmışdır. Layihəyə uyğun olaraq, ümumi sahəsi 654 kvadratmetr olan binada istehsal sahəsi, xammal və hazır məhsulların saxlanılması üçün anbar, iaşə xidməti göstərilməsi üçün yeməkxana və ayrı-ayrı iş otaqları yaradılmışdır.

Müəssisədə keyfiyyətli məhsul istehsalı üçün Yaponiya və Türkiyə istehsalı olan 40 adda ən müasir biçim, ölçü, ütü və tikiş avadanlıqları quraşdırılmış, istehsal prosesinə mərkəzləşdirilmiş qaydada nəzarət təmin edilmişdir. Yeni istehsal sahəsinin yaradılmasına və müasir texnoloji avadanlıqların alınıb quraşdırılmasına 300 min manat vəsait sərf olunmuşdur ki, bunun da 165 min manatı Sahibkarlığa Kömək Fondu tərəfindən, 145 min manatı isə sahibkarın şəxsi vəsaiti hesabına ödənilmişdir.

İstehsal gücü gündə 1000 ədəd köynək olan yeni istehsal sahəsi daxili bazarın tələbatını tamamilə ödəyəcək. Eyni zamanda yeni istehsal sahəsinin fəaliyyətə başlaması ilə əlaqədar müəssisədə 25-30 yeni iş yeri açılacaqdır.

**Xəbərlər şöbəsi**

# Varlığı muxtariyyətinə, inkişafı insanlarına bağlı olan qədim diyar



***Dünyada tarixi, mədəniyyəti, gözəl təbiəti, qəhrəman insanları ilə tanınan bir çox ölkələr var. Ancaq bu keyfiyyətləri eyni ərazidə toplamağı bacaran, eyni zamanda tarix boyu mövcudluğunu qorumaq üçün daim mübarizə aparan bir bölgə, region tapmaq çətindir. Ona görə çətindir ki, bəzən bir bölgənin təbii gözəlliyi digər bölgənin tarixiliyinə, bir yurdun mədəniyyəti digər diyarın hərtərəfli inkişafına "uduzur". Yaşadığımız qədim Naxçıvan diyarı çox nadir rast gəlinən regionlardandır ki, bu dəyərlərin hamısı dünyanın coğrafi xəritəsində kiçik, ancaq mənəviyyatca böyük bir torpaqda – Naxçıvan torpağında cəmləşib. Bu qədim Azərbaycan torpağı – Vətənin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası bu il muxtariyyətinin 90-cı ildönümünü böyük təntənə ilə qeyd edir.***

Təbiidir ki, hər kəs yaşadığı yurd-yuvası ilə fəxr edir. Yaşamağı ilə bərabər, onun haqqında fikir söyləməsi də hər vətəndaşın, necə deyərlər, söz haqqıdır. Lakin fərq bundadır ki, qədim Naxçıvan diyarının şəninə söylənilən hər bir fikir daha yüksəklərdə olmağa layiqdir. Bəşəriyyətin ikinci dəfə yaranışından bəri dünyada ilk yaşayış məskəni kimi bilinən, Şərq və Qərb arasında sivilizasiya mübadiləsinə körpü olan, dünya tarix və mədəniyyətinə böyük töhfələr verən, müasir elmə hələ də öz sirli mövcudiyyətini açmayan bu Nuh yurdundan kim ağızdolusu danışmaz ki?..

Əlbəttə, qədim Azərbaycan yurdu Naxçıvan bütün bu məziyyətləri ilə tarix boyu hər kəsin marağında olmuşdur. Buna görə də hər zaman yadelli hücumlarına məruz qalmışdır. Ancaq hər dəfə də özündə cəsarət toplayaraq ayaqda durmağı bacarmışdır. Mübarizə aparmış, bütün çətinlik və məhrumiyyətlərə sinə gərmiş, nəhayət, öz varlığını qoruyub saxlamışdır. Bütün bunlara isə öz qəhrəman övladlarının sayəsində nail olmuşdur.

Tarixdən məlumdur ki, əsrlər boyu həyatda varolma mübarizəsi aparan Naxçıvana hücumlar mənfur ermənilərin Azərbaycan torpaqlarına köçürülmələrindən sonra fasiləsiz davam etmişdir. Ötən əsrin əvvəllərində qaniçən erməni zabiti Andranikin Naxçıvana gözlənilməz hücumu, burada dinc əhaliyə qarşı soyqırımı törətməsi tarixin danılmaz faktlarındandır. Lakin yerli əhalinin qətiyyətli mübarizəsi bu xain ermənininin də buradan qovulması ilə nəticələnmiş, xalqın iradəsi öz sözünü demişdir. Əzəli Azərbaycan torpaqlarında – Qərbi Azərbaycanda özlərinin dövlətini qurmuş ermənilər öz əsassız iddialarından, havadarlarının hərtərəfli yardımı ilə Naxçıvanı işğal planlarından əl çəkməmişlər. Belə bir tarixi şəraitdə – 1920-ci ildə sovet rəhbərliyi tərəfindən qədim Azərbaycan torpağı olan Zəngəzurun Ermənistana verilməsi nəticəsində Naxçıvan Azərbaycanın əsas ərazisindən ayrı düşmüşdür. Növbəti addım isə respublikadan təcrid olunmuş Naxçıvan torpaqlarını tez bir müddət ərzində işğal edərək Ermənistana birləşdirmək, bundan sonra isə türk torpaqlarından ayrı düşmüş Azərbaycanı addım-addım zəbt etmək idi. Məhz bu cür çətin tarixi bir dövrdə naxçıvanlıların əzmkarlığı, görkəmli diplomat Behbud ağa Şahtaxtinskinin prinsipial mövqeyi, qətiyyətli addımları Rusiyanın Naxçıvan məsələsinə münasibətinin müsbət istiqamətdə dəyişməsinə səbəb olmuşdur. Nəticədə, Naxçıvanın muxtar statusu 1921-ci ilin mart ayında RSFSR ilə Türkiyə arasında imzalanan Moskva müqaviləsində təsbit edilmişdir. Elə həmin ilin oktyabrın 13-də RSFSR ilə Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR və Türkiyə Respublikası arasında imzalanmış Qars müqaviləsinə əsasən, Naxçıvanın ərazisi, sərhədləri daha da dəqiqləşdirilmişdir.

Doğrudur, Naxçıvanın Azərbaycan SSR-in tərkibində muxtar respublika hüququnun qanuni yolla təsbit edilməsi 1924-cü ilin fevralınadək ləngidilmişdi. Lakin həmin il fevralın 9-da Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin dekretinə əsasən, Naxçıvan muxtar ölkəsi Azərbaycan SSR tərkibində muxtar respublikaya çevrilmiş, bununla da, qədim diyarın statusu qəti şəkildə müəyyənləşdirilmişdir. Ümummilli lider Heydər Əliyev demişdir: ***"...əgər Zəngəzur mahalının Ermənistana verilməsi olmasaydı, bəlkə də, Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi".***

Əlbəttə, muxtariyyətini əldə etdikdən sonra Naxçıvan heç də bütün dövrlərdə inkişaf etməmişdir. Sovetlər dövründə bu qədim diyar yalnız keçmiş SSRİ-nin qonşu dövlətlərlə sərhəd məntəqəsi kimi xatırlanmış, iqtisadi perspektivlərdən uzaq bir ərazi kimi "qiymətləndirilmişdir". Naxçıvanın sosial, iqtisadi və mədəni inkişafında əsas addımlar ümummilli lider Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbər seçilməsindən sonra atılmışdır. Regionda kənd təsərrüfatının inkişaf etdirilməsi, yerli sənaye müəssisələrinin yaradılması, muxtar respublikanın idarəçiliyində idarəetməni təkmilləşdirmək məqsədilə müəyyən inzibati ərazi vahidlərinin təşkil olunması, Naxçıvan şəhərində şəhər infrastrukturunun formalaşdırılması istiqamətində müxtəlif tədbirlərin həyata keçirilməsi məhz böyük öndərin gələcək üçün məqsədyönlü tədbirlərindən sayılır. Lakin təəssüflər olsun ki, sonrakı illərdə Azərbaycana rəhbərlik edənlərin Naxçıvana diqqət yetirməməsi bu inkişafın davamlı olmasının qarşısını alırdı. Və nəhayət, ötən əsrin sonlarında ölkəmiz öz müstəqilliyini bərpa etdikdən sonra qədim Azərbaycan torpağı olan Naxçıvan yenidən mürəkkəb vəziyyətə salındı. Üzərindən 70-80 il keçsə də, muxtar respublikaya olan iddiaların mahiyyəti dəyişməmişdi. Yenidən əsassız torpaq iddiaları, ardı-arası kəsilməyən hücumlar və ən dəhşətlisi muxtar respublikanın blokadaya salınması. Bizi özlərinə əbədi düşmən qəbul etmiş ermənilər bu dəfə Naxçıvanı blokadada məhv etməklə ona yiyələnmək istəyirdilər. Ancaq tarix bu imkanı onlara vermədi. Azərbaycan xalqının böyük oğlu, ulu öndər Heydər Əliyevin düşmən hücumuna məruz qalan yurduna – Naxçıvana qayıtması bu məkrli planların üstündən xətt çəkdi. Ulu öndərimiz muxtar respublikanın toxunulmazlıq statusunu yenidən gündəmə gətirdi və bunu dünya ölkələrinin diqqətinə çatdırdı. Ümummilli liderimiz Heydər Əliyev çox qısa bir müddətdə şəxsi nüfuzundan istifadə edərək muxtar respublika ilə qonşu olan Türkiyə və İran İslam respublikaları ilə müxtəlif sahələrdə əməkdaşlıq müqavilələri imzaladı və bu qədim türk yurdunun işğal edilməsinin qarşısını aldı. Naxçıvanın qorunub saxlanılması yenicə qazanılmış müstəqilliyimizin qarantına çevrildi, Azərbaycanın bir dövlət kimi formalaşmasına imkan yaratdı. Çünki müstəqil Azərbaycanın dövlətçilik ideyalarının varislik əsasları üzərində bərpası məhz böyük öndər tərəfindən bu torpaqda həyata keçirilmişdir. Dahi şəxsiyyətin 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı ölkəmizin hərtərəfli inkişafına, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının daha da çiçəklənməsinə səbəb olmuşdur.

***Bəli, Naxçıvan Muxtar Respublikasının ötən əsrin sonlarından start götürmüş davamlı inkişafı indi regionda çox mühüm dəyişikliklərə səbəb olmuş, bütün sahələrdə müsbət nəticələrin əldə edilməsinə şərait yaratmışdır. Kompleks şəkildə aparılan quruculuq işləri – tikilən binalar, abadlaşdırılan yollar, salınan park və xiyabanlar, təmir və bərpa olunan tarixi abidələr, yaşıllaşdırılan ərazilər bu diyarı əsl gözəlliklər məskəninə çevirmişdir. Yəni haqqında bəhs etdiyimiz inkişaf bütün sahələri əhatə edir. Davamlı inkişafın isə sərhədi olmur. Daha doğrusu, insanoğlu heç zaman gözəlliklər qarşısında düşüncəsinə sərhəd qoya bilmir, hər şeyin daha fərqli və yenisinə meyilli olur. Son bir neçə ildə Naxçıvanda olmayan və ya həyatında ilk dəfə bura ayaq basan insanlar buranın gözəlliyinə, təmizliyinə və sakit həyat tərzinə valeh olur, bunu etiraf etməkdən də çəkinmirlər. Bunu mütəmadi olaraq muxtar respublikaya gələn qonaqların dilindən çox eşitmişik. Naxçıvan sakinləri bura yolu düşən hər kəsi yüksək qonaqpərvərliklə qarşılamaqla bərabər, bu diyarın tarixi, mədəniyyəti, zəngin gözəllikləri ilə bağlı məlumatlar verməyə də meyilli olurlar. Təvazökarlıqdan uzaq olsa da, qeyd edək ki, bu, doğma yurda, torpağa bağlılıqdan irəli gələn bir sevgidir. İnsan təbiəti isə belədir ki, hər zaman sevgini bölüşməyə ehtiyac duyur. Elə mənim muxtar respublikanın 90 illiyinə həsr etdiyim bu kiçik yazı kimi...***

**Səbuhi HƏSƏNOV**

# Muxtariyyət dövründə Naxçıvan arxeologiyası

***Bəşər tarixinin ən qədim, xüsusən yazıyaqədərki tarixinin öyrənilməsində arxeologiya elminin özünəməxsus rolu vardır. Arxeologiya Azərbaycan milli tarix elminin çox mühüm sahəsidir. Naxçıvanda onun formalaşması XX əsrin 20-ci illərindən sonrakı dövrə təsadüf edir.***

İlk dövrlərdə yerli mütəxəssislərin az olması səbəbindən bu işlə həvəskarlar, əcnəbi arxeoloqlar məşğul olmuşlar. 1925-ci ildən 1928-ci ilədək fəaliyyət göstərən Azərbaycan "Tədqiq və Tətəbbö" cəmiyyətinin Naxçıvan şöbəsi bütün sahələr kimi, arxeologiyanın da inkişafına, abidələrimizin öyrənilməsinə diqqət göstərmişdir. Bu şöbə tərəfindən 1925-ci ilin sentyabr ayından 1926-cı ilin iyun ayına qədər Xaraba Gilanda aparılan arxeoloji qazıntını maliyyələşdirmək üçün 300 min manat pul ayrılmışdır. Azərbaycan "Tədqiq və Tətəbbö" cəmiyyətinin Naxçıvan şöbəsi 1926-cı ildə Qızılburunda aparılan arxeoloji tədqiqatlara yaxından köməklik göstərmişdir. Şöbənin elmi katibi Mirbağır Mirhüseyn oğlu Mirheydərzadə Qızılburun qazıntısında yaxından iştirak etmişdir. 1934-1936-cı illərdə Oğlanqala, Şahtaxtı, Şortəpə abidələrində arxeoloji tədqiqat işləri aparılaraq zəngin maddi-mədəniyyət nümunələri əldə olunmuşdur.

1951-1964-cü illərdə I Kültəpədə (Babək rayonu), 1958-ci ildə Sədərək kəndindəki şəhər yerində, 1960-1969-cu illərdə II Kültəpədə və digər abidələrdə arxeoloji tədqiqatlar aparılmışdır.

1969-cu ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkəmizə rəhbər seçilməsindən sonra arxeoloji, tarixi və memarlıq abidələrimizin elmi tədqiqi üçün əlverişli şərait yaradılmışdır. Ulu öndər Azərbaycanda, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda elmin inkişafı üçün misilsiz xidmətlər göstərmişdir. 1972-ci ildə dahi rəhbər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyəti Naxçıvan Regional Elm Mərkəzinin yaradılması haqqında qərar qəbul etmişdir. Bu mərkəzdə fəaliyyət göstərən Arxeologiya və etnoqrafiya şöbəsinin əməkdaşları tərəfindən Naxçıvan arxeologiyası, etnoqrafiyası, epiqrafiyası sahəsində uğurlu elmi tədqiqatlar aparılmışdır. 1974-cü ildə yerli arxeoloji kadrların olması nəzərə alınaraq elmi-tədqiqat işlərinin Azərbaycanda keyfiyyətini artırmaq məqsədilə Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutu nəzdində Arxeologiya və Etnoqrafiya Sektorunun təşkil olunması ölkəmizin digər bölgələri kimi, Naxçıvan Muxtar Respublikasında da arxeologiyanın inkişafına böyük təsir göstərmişdir. 1975-ci ildən başlayaraq Naxçıvanda arxeoloji bazalar təşkil olunmuşdur. 1981-ci ilin sentyabr ayında ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda "Azərbaycan SSR-də memarlıq və arxeoloji abidələrin qorunması, bərpası və istifadəsinin yaxşılaşdırılması tədbirləri haqqında" Qərar qəbul edilmişdir. Qərarın Naxçıvanda da arxeologiya və etnoqrafiya elmlərinin inkişafında mühüm əhəmiyyəti olmuş, hər il ardıcıl olaraq Naxçıvan Muxtar Respublikasında arxeoloji ekspedisiyalar təşkil edilmişdir. Ümumiyyətlə, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkəmizə rəhbərliyinin birinci dövründə Naxçıvan arxeologiyası inkişaf etmiş, arxeoloji tədqiqatların əhatə dairəsi və əhəmiyyəti daha da artmışdır. Bu dövrdə Qazma, Xaraba Gilan, Sumbatan, Haqqıxlıq, Şahtaxtı, Ovçular təpəsi, Xələc, Ərəbyengicə, Qızılburun, Damlama, Sarıdərə, I Maxta və digər abidələrdə arxeoloji tədqiqatlar aparılmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin 1993-cü ildən başlayan siyasi hakimiyyətinin ikinci dövründə bu sahəyə xüsusi diqqət yetirilmişdir. Ulu öndərimizin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun nəzdindəki Arxeologiya və Etnoqrafiya Sektoru bazasında Arxeologiya və Etnoqrafiya İnstitutunun təşkil olunması Naxçıvanda arxeologiya elminin müstəqillik müstəvisində inkişafına şərait yaratmış, bu sahədə daha geniş və beynəlxalq miqyasda tədqiqatlar aparılmağa başlanılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun abidələrimizin öyrənilməsi və qorunmasına göstərdiyi yüksək diqqət və qayğı Naxçıvanda arxeologiyanın daha da inkişaf etməsi ilə nəticələnmişdir.

2001-2002-ci illərdə ümummilli liderimiz Heydər Əliyevin tövsiyəsi ilə Naxçıvan-Gəmiqaya ekspedisiyası təşkil olunmuşdur. Bununla bağlı Ali Məclisin Sədri 2001-ci il aprelin 26-da "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" Sərəncam imzalamışdır. Sərəncama əsasən, Gəmiqaya abidəsinə arxeoloji ekspedisiya təşkil edilmiş, yeni qayaüstü təsvirlər və arxeoloji abidələr aşkar edilərək tədqiq olunmuşdur. 2002-ci ilin avqustunda Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin yaradılması Naxçıvanda bir çox elm sahələri kimi, arxeologiyanın da inkişafına əsaslı stimul yaratmışdır. Bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu Naxçıvan arxeologiyasının inkişafına dəyərli töhfələr verməkdədir. Naxçıvan abidələrinin öyrənilməsi və qorunmasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 6 dekabr tarixli "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" Sərəncamı mühüm əhəmiyyət kəsb edir. Sərəncama əsasən, muxtar respublikamızın bütün bölgələrinə ekspedisiyalar təşkil olunmuş, bir çox yeni abidələr qeydə alınaraq pasportlaşdırılmış və araşdırmaların nəticələri kimi "Naxçıvan Abidələri Ensiklopediyası" nəşr olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı "Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən aparılması nəzərdə tutulan arxeoloji ekspedisiyaların maliyyələşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam bu sahə ilə məşğul olan tədqiqatçıların qarşısında yeni vəzifələr qoymuşdur. Sərəncamdan sonra sistemli arxeoloji tədqiqatlara başlanılmış, Şahtaxtı, Xaraba Gilan, Ovçular təpəsi, Oğlanqala, I Maxta Kültəpəsi, Ərəbyengicə, Xələc, I Kültəpə, Meydantəpə, Qazma mağarası, Rəsul dərəsi və digər abidələrdə aparılan arxeoloji tədqiqatlar zamanı maddi və mənəvi mədəniyyətimizlə bağlı maraqlı arxeoloji materiallar, mühüm elmi nəticələr əldə olunmuşdur. Ovçular təpəsi, Oğlanqala, Duzdağ abidələrindəki arxeoloji qazıntılarda yerli mütəxəssislərlə yanaşı, ABŞ, Almaniya, Macarıstan, İsveç, İtaliya, Suriya, Türkiyə və Fransa arxeoloqları da iştirak etmişlər.

***Bu gün dövlət səviyyəsində abidələrimizə, arxeoloji tədqiqatlara göstərilən diqqət və qayğının nəticəsidir ki, arxeologiya elmi Naxçıvanda uğurla inkişaf edir, Azərbaycanımızın qədim tarixinə işıq tutur. Bu sahədə aparılan kompleks elmi-tədqiqat işləri nəticəsində Naxçıvanın Erkən əkinçilik, Kür-Araz, Boyalı qablar, Şəhərsalma mədəniyyətlərinin əsas mərkəzlərindən biri olması öz təsdiqini tapır.***

**Toğrul XƏLİLOV**

***AMEA Naxçıvan Bölməsinin şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru***

# Sabitlik, nizam-intizam, insana qayğı

## *Bu amillər Cəhri kəndini qəsəbətimsallı görkəmə gətirib*



Cəhri kənd 1 nömrəli tam orta məktəbi

***Söhbətə giriş və ya kənddə ilk kompleks quruculuq tədbirləri***

Muxtar respublikaya xarici ölkələrdən gələn qonaqların birindən qəzetimiz üçün müsahibə alarkən soruşdum:

– Naxçıvanın bugünkü inkişaf və tərəqqisini necə görürsünüz?

Maraqlı və dolğun bir cavab verdi:

– Diyarınızın inkişaf və tərəqqisi reallıqdır. Bu reallığın təməlində isə yüksək səviyyədə təmin edilmiş sabitlik, ciddi nizam-intizam dayanır.

Yuxarıdakı epizodu təsadüfən yada salmadım. O vaxt mən qonağa bir amili də xatırlatmışdım: insana, onun layiq olduğu səviyyədə yaşamasına və yurd yerlərinə göstərilən qayğı...

Babək rayonunun Cəhri kəndi, onun sakinləri də belə qayğıdan bəhrələniblər. Son illərdə burada iki dəfə kompleks quruculuq tədbirləri həyata keçirilib. Bu yaşayış məntəqəsini yaxından tanıyanlar bilirlər ki, Cəhri təkcə muxtar respublikanın deyil, ölkəmizin ən böyük yaşayış məntəqələrindən biridir. Sovet dönəmində burada bir məktəb, bir sahə xəstəxanası tikilib. Heç bir əsaslı təmir aparılmadığından həmin obyektlərdə normal fəaliyyət göstərmək mümkün deyildi. Ancaq son 18 ildə Cəhridə görülən işlərin həcmi o qədər böyükdür ki, qısa müddətdə bu qədər işin görülməsinə təəccüblənməyə bilmirsən. Bütün bunlar isə Cəhri kəndinə qəsəbə yaraşığı verib.

Haşiyə çıxaraq qeyd etmək istəyirəm ki, Cəhridə həyata keçirilmiş quruculuq tədbirləri ilə bağlı hazırladığım bu yazıda statistik rəqəmlərə deyil, kənd camaatının ürək sözlərinə üstünlük verməyi lazım bildim. Ona görə də kənd adamları ilə, ziyalılarla görüşdüm.

2 nömrəli Cəhri kənd tam orta məktəbinin müəllimi İntiqam Məmmədov deyir ki, 2007-ci ilin noyabr ayında Cəhri kəndində müasirtipli məktəb istifadəyə verildi. 504 şagird yerlik, ikimərtəbəli məktəb binası rayon mərkəzlərində, hətta Naxçıvan şəhərində tikilən məktəblərdən heç də geri qalmır. Məktəbdə müasir tələblərə cavab verən sinif otaqları, fənn kabinələri, laboratoriyalar vardır. Qapalı və açıq idman qurğuları fiziki hazırlıq dərslərinin lazımi səviyyədə keçilməsinə şərait yaradıb. Məktəbin həyətində yaşıl örtüklü futbol meydançası şagirdlərin ixtiyarına verilib. Təhsil ocağında internetə qoşulmuş kompüter dəstlərindən istifadə olunur. Müəllim və şagirdlərin mütaliəsi üçün kənd məktəbindəki kitabxanada hər cür imkanlar var. Kitabxana latın qrafikası ilə Azərbaycan dilində çap olunmuş yeni dərsliklərlə, lüğət və ensiklopedik nəşrlərlə, bədii ədəbiyyatlarla zənginləşdirilib. Bütün bunlar isə məktəbdə təhsilin səviyyəsinin yüksəldilməsinə şərait yaradıb. Pedaqoji kollektiv çalışır ki, belə qayğıya əməli işlə cavab versin, qazanılan uğurlar davamlı xarakter alsın.

Cəhri Kənd Uşaq Musiqi Məktəbi ümumtəhsil məktəbinin lap yaxınlığında yerləşir. Üz tuturuq bu məktəbə. Dərslər ikinci növbədə keçildiyindən, hələlik, burada sakitlik hökm sürür. Müəllimlər dərslərə hazırlaşırlar. Bundan istifadə edib məktəbin direktoru Cəmaləddin Hüseynovla həmsöhbət oluruq.

Direktorla söhbətdən: – Son illər kənd yaşayış məntəqələrimizdə yeniyetmə və gənclərin musiqi təhsili almaları üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Yerlərdə musiqi məktəbləri üçün binaların tikilib istifadəyə verilməsi məhz bu məqsədə xidmət edir. Cəhri Kənd Uşaq Musiqi Məktəbi muxtar respublikamızda yaxşı uğurları olan məktəblərdən biridir. Kollektivimiz üçün yeni binanın inşa olunması məsuliyyətimizi daha da artırıb.

Direktorun sözlərinə görə, ikimərtəbəli müasirtipli musiqi məktəbində 2 xalq çalğı alətləri ansamblı, 3 orkestr, 4 sazçalanlar ansamblı, xor fəaliyyət göstərir. Tar, kamança, qarmon, nağara, fortepiano, saz, xanəndəlik, truba, skripka siniflərində 350 şagird musiqinin ilkin sirlərini öyrənir.

Bir azdan çal-çağır səsləri eşidiləcək bu binada təhsil alan yüzlərlə uşaq musiqisevər muxtar respublika və ölkə səviyyəli tədbirlərə qatılıb, fəxri fərmanlara, diplomlara layiq görülüb, doğma diyarımızda mədəniyyətin inkişafına göstərilən qayğını əməli işi ilə sübut edib. Deməli, yaradılan şərait öz bəhrəsini verib və çəkilən zəhmət hədər getməyib.



Cəhri kəndində xidmət mərkəzi

Cəhri kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Çingiz Tahirovla kənd mərkəzində görüşürük. Deyir ki, son illər kənd mərkəzləri üçün inşa olunan yeni binalar muxtar respublikada həyata keçirilən quruculuq tədbirlərinin tərkib hissəsinə çevrilib. Belə ünvanlar yaşayış məntəqələrinin vahid mərkəzdən idarə olunmasında mühüm əhəmiyyət daşıyır. Cəhridə də yeni kənd mərkəzinin istifadəyə verilməsi bu istiqamətdə görülən işlərin davamıdır. Kənd mərkəzinə xüsusi yaraşıq verən, müasir memarlıq üslubunda tikilmiş ikimərtəbəli binada icra nümayəndəliyi, bələdiyyə, mədəniyyət evi, kitabxana, baytarlıq məntəqəsi, rabitə evi, polis sahə müvəkkili üçün otaqlar ayrılıb, həmin təşkilatların normal fəaliyyətinə hər cür şərait yaradılıb. Binanın həyətində geniş abadlıq işləri aparılıb, kəndin mərkəzi meydanı tamamilə yenidən qurulub, yeni istirahət parkı salınıb. Ərazidə Sovet İttifaqı Qəhrəmanı Qəzənfər Əkbərovun büstü ucaldılıb.

İcra nümayəndəsi bildirir ki, 2007-ci ildə aparılan quruculuq tədbirləri çərçivəsində Naxçıvan-Şahbuz avtomobil yolundan Cəhri və Payız kəndlərini birləşdirən 13 kilometrlik abadlaşdırılmış yolu da nəzərə alsaq, görülən işlərin həyatımızın müxtəlif sahələrini əhatə etdiyini görərik. Cəhri və Payız kəndlərinin sakinləri rahat və hamar yolla qısa vaxt ərzində Naxçıvan şəhərinə və rayon mərkəzinə gedib-gələ bilirlər.

Kəndin simasının əsaslı surətdə dəyişdirilməsi, gözəlliyə qovuşdurulması üçün müasir arxitektura üslubundan istifadə olunub. Nəticə isə göz qabağındadır. Yeri gəlmişkən onu da qeyd edim ki, cəhrililər onlar üçün qurulub-yaradılanları qoruyub saxlamağı bacarırlar.

***Cari ilin quruculuq ərməğanları***

Cəhrililər 2014-cü ili – "Muxtariyyət ili"ni özləri üçün ikiqat bayram ili hesab edirlər. Bu il kənddə bir neçə obyektin açılışı olub. Yəni 2007-ci ildə həyata vəsiqə alan yeni ünvanların sayı bir qədər də artırılıb.

*El ağsaqqalı Nəriman Novruzov:*

– Bu kənddə doğulmuşam. Burada boya-başa çatmışam. Dediyim odur ki, Cəhrinin dünənini yaxşı xatırlayır, bu günü ilə qürur duyuram. 2014-cü ildə Cəhrini daha da gözəlliyə qovuşduranlara dərin minnətdarlığımı bildirirəm. Vallah, kiçik iş deyil qısa vaxtda bu boyda iş görmək. Bunu ancaq qəlbi yurda bağlı olan, özünü mənsub olduğu xalqın sabahına cavabdeh sayan qurub-yaratmaq əzmli rəhbər edə bilər.

Bu il fevral ayının 19-da keçirilən açılış mərasimləri zamanı kənd sakinləri ilə görüşündə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Cəhri muxtar respublikanın böyük kənd yaşayış məntəqələrindən biridir. Ötən dövrdə kəndin inkişafına hərtərəfli diqqət göstərilmiş, kənddə içməli və suvarma su təminatı yaxşılaşdırılmış, mənzillər daimi elektrik enerjisi və təbii qazla təmin edilmiş, yeni sosial obyektlər tikilmişdir. Bu gün kənddə müasir tələblərə cavab verən 2 məktəb binası, musiqi məktəbi, xidmət mərkəzi və sahə xəstəxanası fəaliyyət göstərir. Həmçinin kənddə rabitə xidmətinin keyfiyyəti yüksəldilmiş, yeni nəsil texnologiyalara əsaslanan avtomat telefon stansiyaları qurulmuşdur. Yaradılanlar kəndlə şəhər arasındakı fərqin aradan qaldırılmasına, sakinlərin sosial problemlərinin həllinə və yeni iş yerlərinin açılmasına səbəb olmuşdur. Eyni zamanda görülən bu işlər ölkəmizin inkişafının bir kəndin timsalında göstəricisidir".***

Budur, bu ilin fevral ayında istifadəyə verilmiş 1 nömrəli tam orta məktəbin həyətindəyik. Məktəbin direktoru Volodya Novruzovla söhbət edirik. Müəllimlər də ikibir, üçbir ətrafımıza yığışırlar. Bildirirlər ki, müasir məktəb binasının istifadəyə verilməsi müəllim və şagird kollektivinə ən böyük hədiyyədir. Məktəbdə təhsilin səmərəliliyini artırmaq üçün yeni imkanlar yaradılıb. Onlar yaradılan yüksək təhsil şəraitindən düzgün istifadə edərək bundan sonra da vətənpərvər və bilikli gənclər yetişdirəcəklərini bildirdilər. Təhsil ocağının coğrafiya müəllimi, coğrafiya üzrə fəlsəfə doktoru Əli Həsənov bu məktəbin qədim tarixə malik olduğundan danışır. Deyir ki, 1885-ci ildə Cəhridə məktəb yaradılıb. Bu məktəbə ətraf yaşayış məntəqələrindən də şagirdlər cəlb edilib. 1904-1905-ci tədris ilində tədris ocağı rus-tatar məktəbinə çevrilib. Məktəb 1920-ci ilə kimi fəaliyyət göstərib. Tədris ocağı 1959-cu ildən orta məktəb kimi fəaliyyət göstərir. Bu illərdə məktəb böyük uğurlara imza atıb. Fəlsəfə və elmlər doktorları Səfərəli Babayev, Nəriman Orucəliyev, Hacı Qadir Qədirzadə, Fəxrəddin Səfərli, Məhəmmədəli Novruzov və onlarla belələri ilk təhsillərini bu məktəbdə alıblar.

Yeni məktəb binasının açılışında Ali Məclis Sədrinin ***"Ölkəmizdə təhsil quruculuğu sahəsində həyata keçirilən tədbirlər muxtar respublikada da davam etdirilir. Yeni məktəb binaları tikilir, təhsil ocaqları lazımi tədris avadanlıqları və informasiya texnologiyaları ilə təmin edilir, dərslər müasir təhsil metodları əsasında tədris olunur. Cəhri kənd 1 nömrəli tam orta məktəbinə də bu qayğıdan pay düşmüşdür. Yaradılan şərait dərslərin keyfiyyətlə tədrisinə və daha yaxşı mənimsənilməsinə imkan verəcəkdir. Müəllimlər bilməlidirlər ki, onlar ölkəmizin gələcəyini hazırlayırlar. Ona görə də hər bir gənc təhsilli böyüdülməklə yanaşı, həm də əsl vətəndaş kimi yetişdirilməlidir"*** tövsiyəsi əməli fəaliyyət proqramı kimi qəbul olunub. Məktəbin əvvəlki illərdə qazandığı nailiyyətlər də deməyə əsas verir ki, köklü maarifçilik ənənələri daha böyük uğurlar qazanılmasında əhəmiyyətli rol oynayacaq, qarşıya qoyulan vəzifələr yüksək səviyyədə yerinə yetiriləcək. Qeyd edək ki, 2012-2013-cü dərs ilində məktəbi bitirən məzunlardan 22-si ali məktəblərə, 2-si isə orta ixtisas məktəblərinə qəbul olunub, 7 şagird 500-700 intervalında yüksək bal toplayıb.

Direktor deyir ki, informasiya texnologiyalarının imkanlarından istifadə müasir təhsil sisteminin qarşısında duran başlıca vəzifələrdəndir. Cəhri kənd 1 nömrəli tam orta məktəbin kompüter otaqlarında 57 kompüter quraşdırılıb və internetə qoşulub. Məktəbdə 4 elektron lövhəli sinif vardır. İnternetə çıxışı olan və lazımi elektron dərsliklərlə təmin edilən interaktiv lövhələr elektron təhsil mübadiləsinin aparılmasına imkan verib.

İcra nümayəndəsi ilə cari ilin digər quruculuq ünvanlarına gedirik. Budur, Cəhri kəndindəki xidmət mərkəzindəyik. Burada 2 bərbərxana, 2 qadın gözəllik salonu, dərzi, ət satışı yeri, ərzaq, sənaye və təsərrüfat malları olmaqla, 3 mağaza fəaliyyət göstərir. Kənd camaatı bu ünvanlardakı xidmətlərdən razılıq edir.



Cəhri Kənd Sahə Xəstəxanası

Yeni quruculuq ünvanlarından biri də Cəhri Kənd Sahə Xəstəxanasıdır. Səhiyyə müəssisəsi iki mərtəbədən ibarətdir. Yenidənqurmadan sonra istifadəyə verilən səhiyyə ocağının baş həkimi Qulam Allahverdiyev muxtar respublikada səhiyyə quruculuğu sahəsində aparılan işlərin Cəhri Kənd Sahə Xəstəxanasını da əhatə etdiyini vurğulayaraq yaradılan şəraitə görə ağxalatlı peşə sahibləri adından minnətdarlığını bildirdi. Dedi ki, Cəhridə səhiyyə müəssisəsinin əsası 1892-ci ildə qoyulub. Tibb ocağı 1904-cü ildə 6 çarpayılıq sahə xəstəxanasına çevrilib. Bu gün isə 20 çarpayılıq səhiyyə ocağı kimi fəaliyyət göstərən Cəhri Kənd Sahə Xəstəxanası tam müasir tələblər səviyyəsində qurulub, lazımi tibbi avadanlıqlarla təmin edilib. Burada stasionar və poliklinika şöbələri, doğuş və ginekologiya bölməsi fəaliyyət göstərir.

*Xəstəxananın stomatoloqu Qələndər Əsədov:* – Xəstəxanada yaradılan müasir şərait kollektiv qarşısında mühüm vəzifələr qoyub. Həkimlər burada yaradılan şəraitdən səmərəli istifadə etməyə səy göstərirlər. Müxtəlif profilaktik tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. Əhali arasında maarifləndirici tədbirlərə geniş yer verilir. Məqsəd isə ondan ibarətdir ki, kənd sakinlərinin sağlamlığı qorunsun. Həkim göstərilən yüksək diqqət və qayğıya görə muxtar respublika rəhbərinə kollektiv adından minnətdarlıq etdi.

* * *

Məlumat üçün onu da bildirək ki, Cəhri kəndində aparılan tikinti işləri zamanı kənddaxili 2,8 kilometr yola asfalt örtük salınıb. Əhalinin rabitə xidmətindən istifadəsinin səviyyəsinin yüksəldilməsi məqsədilə mövcud telefon stansiyası 1024 nömrəlik yeni nəsil avtomat telefon stansiyası ilə əvəz olunub. Cəhri və Gülşənabad kəndlərini əhatə edən 256 nömrəlik yeni nəsil avtomat telefon stansiyası quraşdırılıb, 400 metr rabitə xətti çəkilib. Quruculuq tədbirləri elektrik, qaz və su təsərrüfatını da əhatə edib, 850 metr yeni elektrik verilişi xətti çəkilib, 550 metr qaz xəttinin yeri dəyişdirilib, 2020 metr uzunluğundakı içməli su xəttində isə təmir-bərpa işləri aparılıb.

**Söhbətimizin əvvəlində xatırladığım epizodun təsadüfi olmadığını oxucu da təsdiq edər. Çünki bir kənd yaşayış məntəqəsində bu həcmdə işlərin görülməsi həm inkişaf və tərəqqinin ifadəsi, həm də insana, onun layiq olduğu səviyyədə yaşamasına və yurd yerlərinə göstərilən qayğı deyilmi?**

**Bunu da hörmətli oxucu təsdiq edər ki, bu gün qədim diyarımızın bütün guşələrini belə qayğı öz ağuşuna alıb.**

**Muxtar MƏMMƏDOV**

## Tələbə-gənclərlə görüş

*Dünən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclərin İntellektual İnkişaf Mərkəzi İctimai Birliyi və muxtar respublika Gənc Vətənpərvərlər İctimai Birliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetində tələbə-gənclərlə görüş keçirilmişdir.*

Tədbirdə çıxış edən Gənclərin İntellektual İnkişaf Mərkəzi İctimai Birliyinin sədri Canməmməd Canməmmədov bildirmişdir ki, gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan verməklə onların cəmiyyətdə özlərini təsdiq etmələrində böyük rol oynamışdır. Vurğulanmışdır ki, bu yüksək münasibətə cavab olaraq Azərbaycan gəncləri bütöv və müstəqil Azərbaycan naminə səylə çalışmalı, öz siyasətində onlara arxalanan ölkə Prezidentinin etimadını doğrultmalıdırlar. Gənclərin İntellektual İnkişaf Mərkəzi İctimai Birliyinin yaradılmasının əhəmiyyətindən də danışan Canməmməd Canməmmədov birliyin gələcək fəaliyyət istiqamətlərini gənclərin diqqətinə çatdırmışdır.

Sonra tədbirdə Gənc Vətənpərvərlər İctimai Birliyinin sədri Tahir Məmmədli çıxış edərək qarşıda duran planlardan danışmışdır. O, muxtar respublikamızda gənclərin hərbi vətənpərvərlik və mili-mənəvi dəyərlərə hörmət ruhunda tərbiyə edilməsi istiqamətində dövlət gənclər siyasətinin uğurla həyata keçirildiyini bildirmişdir. Vurğulanmışdır ki, Gənc Vətənpərvərlər İctimai Birliyinin yaradılması gənclərin vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Birlik gələcək fəaliyyətində aidiyyəti təşkilatlarla vətənpərvərlik mövzusunda müxtəlif miqyaslı tədbirlər keçirəcək və bu tədbirlərdə gənclərin fəallığına diqqət yetirəcəkdir.

Sonda Naxçıvan Dövlət Universitetinin Tələbə-Gənclər Təşkilatının sədri Arzu Abdullayev görüşün əhəmiyyətindən danışmış, tələbə-gənclərin təklifləri dinlənilmişdir.

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti**

## 18 mindən çox uşaq icbari dispanserizasiyaya cəlb olunub

*Muxtar respublikamızda uşaqların sağlamlığına xidmət edən bütün səhiyyə müəssisələrində uşaqların icbari tibbi müayinələrinə başlanılmasından bir ay keçir.*

İcbari dispanserizasiyanın aparılmasında əsas məqsəd uşaqların sağlamlığının qorunması və möhkəmləndirilməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi, uşaqlar arasında xəstələnmə, əlillik və ölüm hallarının səviyyəsinin daha da azaldılması, uşaqların xəstəliklərdən qorunmasıdır.

İcbari dispanserizasiyanın səmərəli təşkili üçün muxtar respublikanın bütün rayonlarında seminar-məşğələlər keçirilmiş, bu tədbirlərdə iştirak edən rayon mərkəzi xəstəxanalarının pediatrları, sahə tibb bacıları, kənd həkim ambulatoriyaları və feldşer-mama məntəqələri işçilərinin sualları cavablandırılmışdır.

Artıq mart ayı ərzində 18 min 225 uşaq tibbi müayinələrdən keçirilmiş və müvafiq təyinatlar alımışdır. İndiyədək Babək rayonunda 7373, Şərur rayonunda 1769, Sədərək rayonunda 1750, Ordubad rayonunda isə 1737 uşaq profilaktik tibbi müayinələrlə əhatə olunmuşdur. Xəstəxanaya gəlmək imkanı olmayan uşaqların müayinə və dispanserizasiyası isə xüsusi həkim briqadası tərəfindən həyata keçirilir. Valideynlər bu tədbiri ölkəmizdə uşaqların sağlamlığına göstərilən dövlət qayğısı kimi dəyərləndirərək ölkə başçısına öz minnətdarlıqlarını bildirirlər.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

## Çempionluğun taleyini həll edəcək oyun

*Futbol üzrə Azərbaycan I divizionunun 24-cü turu çərçivəsində “Araz-Naxçıvan” futbol komandası doğma azarkeşləri önündə “Neftçala” futbol komandasını qəbul edəcək. Hazırda çempionata liderlik edən qırmızı-ağlar üçün bu matç böyük əhəmiyyət kəsb edir. Belə ki, muxtar respublika təmsilçisinin turnir cədvəlindəki ən yaxın izləyicisi məhz Neftçala klubudur. Rəqibini 9 xal qabaqlayan “Araz-Naxçıvan” bu görüşdə qalib gəldiyi təqdirdə çempionluğunu, demək olar ki, böyük ölçüdə sığortalamış olacaq.*




“Araz-Naxçıvan” futbol komandasının baş məşqçisi Əsgər Abdullayevi matç öncəsi düşündürən məqam müdafiəçi Ruslan Zamanovun ötən tur “Qaradağ Lökbatan”la oyunda cari mövsümdə dördüncü sarı vərəqə alaraq cəzalı duruma düşməsidir. Bununla yanaşı, qırmızı-ağların heyətində zədəli futbolçunun olmaması oyuna daha ciddi hazırlaşmağa zəmin yaradıb. “Neftçala” ilə oyunun hazırlıqlarına gəlincə, komandamız gündə bir dəfə olmaqla məşqlərini davam etdirir.

Rəqib komandanın muxtar respublikaya bu gün gələcəyi gözlənilir. “Neftçala”nın heyətində ən böyük itki isə hücumçu Aqşin Həşimovun cəzalı olmasıdır.

Qeyd edək ki, “Araz-Naxçıvan” – “Neftçala” görüşü aprelin 5-i, saat 15[00]-də Naxçıvan Muxtar Respublika Stadionunda olacaq.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2014-cü ilin mart ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi (%) |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1137 | 68,2 | 68,5 | 100,4 |
| 2. | Şahbuz rayonu | 382 | 22,9 | 23,0 | 100,4 |
| 3. | Kəngərli rayonu | 514 | 30,8 | 30,9 | 100,3 |
| 4. | Culfa rayonu | 1053 | 63,2 | 63,3 | 100,2 |
| 5. | Babək rayonu | 1767 | 106,0 | 106,1 | 100,1 |
| 6. | Naxçıvan şəhəri | 3125 | 187,5 | 187,5 | 100,0 |
| 7. | Şərur rayonu | 1866 | 112,0 | 112,0 | 100,0 |
| 8. | Sədərək rayonu | 375 | 22,5 | 22,5 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 17054 | 1023,3 | 1025,9 | 100,3 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **27273** | **1636,4** | **1639,7** | **100,2** |

***Qeyd:*** Mart ayında texniki itki nəzərə alınmaqla daxil olan 27 milyon 273 min kilovat-saat elektrik enerjisinin dəyəri 1 milyon 636 min 400 manat olmuş, cəmi 1 milyon 639 min 700 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,2 faizini təşkil edir.

***Onunla görüşəndə “Naxçıvan Muxtar Respublikasının əməkdar bədən tərbiyəsi və idman xadimi” fəxri adı ilə təltif olunduğunu hələ bilmirdi. Təbrik etdim. Sevincindən gözləri doldu. “Mən futbolla vaxtsız vidalaşdım. Amma ondan ayrılmadım. Naxçıvanda futbolun inkişafı üçün əlimdən gələni əsirgəmədim. Mənim bu kiçik xidmətimə dövlətimiz böyük qiymət verib. Məni ən çox sevindirən hadisə böyük futbola yenidən qayıtmaq olar deyə, düşünmüşəm: elə bil, futbola qayıtmışam”, – dedi.***

## Vaxtsız vida və yenidən böyük futbola qayıdış

Futbol bəzən ədalətsiz oyun kimi də qiymətləndirilir: oyunçuların zədələnmələri, baş verə biləcək bədbəxt hadisələr, məğlubiyyətlər, uğursuzluqdan sonra oyunçuların komandadan uzaqlaşdırılması və sair. Sadalanan bu “ədalətsizlik”lər bəzən tanınmış simaların karyeralarını vaxtından əvvəl bitirmələrinə səbəb olur. Keçmiş SSRİ dönəmində Naxçıvan futbolu bir yetirməsi ilə öyünməyə başlayırdı ki, “zədə epidemiyası” ondan da yan keçmədi.

İbrahim Rzayev Naxçıvan futbolunun ötən əsrin 80-90-cı illərində yetişdirdiyi ən istedadlı oyunçuların siyahısına başçılıq edirdi. Gənc yaşlarında onun mükəmməl oyunu keçmiş sovet məşqçilərinin diqqətindən yayınmamışdı. Qısa müddət sonra o, SSRİ-nin gənclərdən ibarət millisinə dəvət edilir. Müdafiədə baxımlı oyunu, sürətli reydləri sayəsində İ.Rzayev əsas heyətin dəyişilməz üzvünə çevrilir. Lakin bir oyunda aldığı zədə onun bütün arzularını puç etdi. O günləri xatırlayarkən İbrahim Rzayev bunları dilə gətirdi:

– 1976-cı ildə “Araz” komandasında məşqçi Əli Əliyevin başçılığı ilə futbolçu karyerama başladım. 1978-ci ildə Ruslan Abdullayevin rəhbərlik etdiyi Naxçıvan klubunun əsas heyətinə dəvət olundum. Bir müddət oynadıqdan sonra Azərbaycanın yeniyetmələrdən ibarət millisinə çağırıldım. Yığmada oyunumu görən Əhməd Ələsgərov məni o zaman ölkənin bir nömrəli komandası olan “Neftçi”yə dəvət etdi. Həmin müddətdə komanda Anatoli Banişevski, Valeri Qryazev və Əhməd Ələsgərovun rəhbərliyi altında uğurlu çıxışları ilə seçilirdi. 1981-ci ildə SSRİ-nin yeniyetmələrdən ibarət millisinə çağırıldım. Bu, Naxçıvan futbol tarixində yeganə hal idi.

“Neftçi”nin heyətində Kiyevdə “Dinamo”ya qarşı oyun mənim heç vaxt yadımdan çıxmaz. 1:1 hesabı ilə başa çatan oyun zədələndiyim görüş idi. Sağ ayağımdan ciddi zədə aldım və oyunu yarımçıq tərk etdim. 4 aya yaxın Moskvada müalicə olundum, lakin zədəmi bərpa etmək mümkün olmadı. Naxçıvana qayıtdım, beləcə, böyük futbolla vidalaşdım: özü də 25 yaşımda”.

Təbii ki, bir futbolçu üçün bundan ağır hal ola bilməz. “Neftçi”də oynayarkən İ.Rzayev bir çox tanınmış futbolçularla birlikdə top qovub. O deyir:

– SSRİ millisində oynayarkən dünyanın bir çox tanınmış futbolçusu həmin yığmada çıxış edirdi. Bunlar arasında Mixaliçenko, Protasov, Çerkezov və başqaları var idi. O zaman Azərbaycanın tanınmış futbolçuları İsgəndər Cavadov, Əsgər Abdullayev, Səməd Qurbanov, Maşallah Əhmədov, Rəşid Özbəyov, Vaqif Sadıqov Bakı klubunun heyətində çıxış edirdilər. Belə təcrübəli futbolçularla bir yerdə oynamaq, doğrudan da, olduqca fərəhli və qürurverici hal idi.

İbrahim Rzayev karyerasını bitirməyə məcbur olduqdan sonra futbola olan sevgisinin ölməməsi üçün bu sahədən ayrılmayıb. Naxçıvana qayıtdıqdan sonra o, məşqçiliyə başlayıb: “Naxçıvana qayıtdıqdan sonra məşqçi kimi fəaliyyətə başladım. İşlədiyim



komandalarda 7 dəfə Naxçıvan Muxtar Respublika çempionu, 6 dəfə “Prezident Kuboku”nun sahibi, 6 dəfə “Naxçıvan Kuboku”nun sahibi, Türkiyədə keçirilən beynəlxalq turnirin qalibi və ən yaxşı məşqçi titullarını qazanmışam. Hazırda məşqçiliklə yanaşı, Naxçıvan Muxtar Respublikası Stadionunun direktoru vəzifəsində çalışıram”.

Veteran futbolçu yeni formalaşan “Araz-Naxçıvan” futbol klubu barədə də fikirlərini bizimlə bölüşdü: “12 il Naxçıvanda böyük futbol olmayıb, futbol üçün çox darıxmışdım. “Araz-Naxçıvan” futbol komandası bərpa olunduqdan sonra bu, məni çox sevindirdi. Doğma komandamı yenidən meydanlarda görmək başqa hissdir. Hazırda komanda I divizionun lideridir. Həmçinin baş məşqçi Əsgər Abdullayevin bu kollektivə rəhbərlik etməsi sevindirici haldır. Uzun illər onunla çiyin-çiyinə futbol oynamışıq və indi də dostluğumuz davam edir. Naxçıvan klubunun yaranmasından sonra gənclərin bu sahəyə marağı daha çox artıb. Deyərdim ki, hər gün yeni uşaqlar gəlir və komandanın müəyyən yaş qruplarında oynamaq arzusunda olduqlarını bildirirlər. Bu da onun göstəricisidir ki, Naxçıvanda əsaslı futbol ənənəsi var. Arzu edirəm ki, sevimli komandam Avropanın yaşıl meydanlarında qələbələr qazansın”.

Sonda İbrahim Rzayev qırmızı-ağların ikinci dövrədəki oyunlarına da toxundu və Naxçıvanda futbolun yenidən dirçəlməsində əməyi olanlara minnətdarlığını bildirdi:

– Komanda ikinci dövrənin hazırlıqlarını Bakıda keçdi. Heyətdə naxçıvanlı məşqçilərin çalışması sevindirici haldır. Həmin məşqçilər bir zamanlar “Araz”ın heyətində çıxış ediblər (Orxan Mirzəyev, Bilal Nağıyev – C.M.). İnanıram ki, “Araz-Naxçıvan” komandası uğurlu çıxışını davam etdirəcək və liderliyini sonadək qoruyacaq. Gələn mövsümdən komandamızı Premyer-Liqada görəcəyik. Komanda hazırkı uğurlarını Naxçıvan Muxtar Respublikasının rəhbərinə borcludur. Muxtar respublika rəhbərinin dəstəyi sayəsində bir çox istedadlı futbolçu “Araz-Naxçıvan”a dəvət olundu. İnanıram ki, komandamız çempion olmaqla onlara göstərilən etimadı doğruldacaq və əməyin hədər yerə getmədiyini göstərəcək”.

İbrahim Rzayev Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1 aprel tarixli Sərəncamı ilə ona verilən “Naxçıvan Muxtar Respublikasının əməkdar bədən tərbiyəsi və idman xadimi” fəxri adına görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirdi: “Bu ada layiq görülməyim məni futbola bir qədər də bağladı. Ali Məclisin Sədrinə öz minnətdarlığımı bildirirəm. Çalışacağam ki, mənə göstərilən etimadı doğruldum”.

**Ceyhun MƏMMƏDOV**

**Allah rəhmət eləsin**

Duzdağ Fizioterapiya Mərkəzinin kollektivi iş yoldaşları Zülfiyyə Qurbanovaya, nənəsi
SƏKİNƏ XANIMIN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 308